BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 *Humanitar elmlər seriyası* 2015

**UOT : 94**

# ŞİMALİ KOREYANIN NÜVƏ PROQRAMI ƏTRAFINDA MÜZAKİRƏLƏR. ÇİNİN MÖVQEYİ

**Ü.C.ƏLİYEVA**
***AMEA Z.M.Bünyadov ad. Şərqşünaslıq İnstitutu***
***aliyevaulker@hotmail.com***

*Məqalədə Şimali Koreyanın nüvə proqramı ətrafında yaranan gərginlik, bu problemin yaranma səbəbləri və səbəbkarları, Koreya yarımadasındakı gərginliyi aradan qaldırmaq səylərinin nəticələri araşdırılmışdır. Müəllif Şimali Koreya ilə Çinin münasibətlərini, bu dövlətin Koreya yarımadasında yaranan gərginliyə münasibətdə mövqeyi və maraqlarını tədqiq etmişdir. Məqalədə qeyd olunan problem və gərginlik ətrafında müzakirələrlə bağlı maraqlı faktlar irəli sürülmüş və mühüm elmi nəticələr əldə olunmuşdur.*

**Açar sözlər:** Şimali Koreya, Koreya yarımadası, Çin, KXDR, nüvə proqramı

Koreya yarımadasında Şimali Koreya potensial gərginlik mərkəzi olaraq qalmaqdadır. Bu ölkənin nüvə proqramı ətrafında danışıqlar hələ də nəticə verməmişdir. Problem ətrafında mübahisələr 2002-ci ildə Birləşmiş Ştatlar bu ölkəni uranın zənginləşdirilməsi üzrə gizli proqramın həyata keçirilməsi və nüvə silahı hazırlanmasında günahlandırdıqdan sonra başlanmışdır. O zaman C.Buş Şimali Koreyanı terrorçu ölkələr sırasına aid etdi. 2002-ci ilin oktyabrında isə ABŞ Dövlət katibinin müavini C.Kelli KXDR-nın uran zənginləşdirdiyini elan etdi. Az sonra Birləşmiş Ştatlar Şimali Koreyanın elektrik stansiyaları üçün yanacaq göndərilməsini dayandırdı. Buna cavab olaraq, KXDR 2002-ci il, dekabrın 12-də rəsmi olaraq nüvə proqramının yeniləşdirilməsini elan edib Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin müfəttişlərini ölkədən çıxardı [5].

**Problemin yaranma səbəbləri.** KXDR-nın nüvə şantajı ölkədə kəskin enerji ehtiyatları çatışmazlığı ilə izah olunur. Hələ 1993-cü ildə koreyalılar nüvə silahını yaymamaq haqqında müqavilədən çıxacaqları ilə hədələyən zaman Ağ ev 2003-cü ilə kimi KXDR-da AES tikməyi və buna qədər daimi olaraq ölkəni mazutla təmin etməyi vəd edərək, Pxenyanı razılığa gətirə bilmişdi [8]. Birləşmiş Ştatlar KXDR-i müəyyən miqdarda neftlə (mazutla) təmin etməyi, dinc məqsədli iki nüvə reaktoru tikintisi üçün beynəlxalq kon-

sorsium təşkil etməyi, həmçinin bu ölkəyə qarşı iqtisadi və siyasi sanksiyaları qaldırmağı öhdəsinə götürsə də, KXDR indiyədək nə mazutu, nə də AES-i görmüşdür. 1998-ci ildə isə Asiya maliyyə böhranı bu konsorsiumun fəaliyyətini pozdu. Cənubi Koreya öhdəsinə götürdüyü əsas maliyyə xərclərini ödəmək vədlərini yerinə yetirə bilmədi. Yaponiya da üzərinə düşən maliyyə öhdəliklərinin qeyri-müəyyənliyini bəyan etdi. ABŞ KXDR-ə neft verilməsi və AES tikintisinin müddəti haqqında planı yarımçıq qoydu. Nəticədə Koreya yarımadasında vəziyyət yenidən gərginləşdi: KXDR «Tepxodonq – 1» ballistik raketini sınaqdan keçirdi [9, 624].

Əslində Şimali Koreyada nüvə təhlükəsinin olması məsələsi Koreyanın özü deyil, onun başlıca dayağı Çinlə əlaqədardır. Belə ki, ABŞ-ın Koreyaya enerji yardımı göstərməməsinin səbəbi onun kommunist dövləti və ABŞ-ın rəqibi ÇXR-in müttəfiqi olmasıdır. Deməli, ABŞ-ı Şimali Koreya ilə bağlı problemin bu səviyyəyə çatmasının günahkarlarından biri hesab etmək olar. Çünki bu ölkənin nüvə istehsalı sahəsində fəaliyyətinin davam etdirilməsinə öz fəaliyyəti ilə dolayı olaraq təkan vermişdir.

Lakin region üçün ciddi təhlükə olan bu problemin sülh yolu ilə həlli istiqamətdə səylər davam etməkdədir. 2000-ci il, iyun ayının 12-14-də Şimali və Cənubi Koreya prezidentlərinin Pxenyanda keçirilmiş görüşünün gözlənilməz uğuru ikitərəfli əlaqələr çərçivəsindən xeyli irəli çıxdı. Görüşün əhəmiyyəti böyük idi. Çünki maraqlarına toxunulan dövlətlər regional strategiyalarını yenidən nəzərdən keçirməli olmuşdular. Doğrudur, o zaman hələ heç kim bu görüşün baş tutacağına təminat vermirdi. Bu görüşü müəyyən edən amillər Şimali Koreyada gərgin iqtisadi vəziyyət və Cənubi Koreya prezidenti Kim De Çjunun şəxsiyyəti idi. Beş illik prezidentliyi müddətində Şimali Koreyanı özünə inandırmaq üçün ona iki il yarım vaxt lazım oldu. Beləliklə, Kim Şimali Koreyanı danışıqlar masası arxasında əyləşməyə razı sala bildi. Bu dövləti danışıqlara cəlb etməkdə ABŞ və xüsusilə, Çin də səy göstərirdilər. Lakin Koreya yarımadasındakı proseslərə münasibətdə bu dövlətlərin hər birinin mövqeyi fərqlidir.

**Problemin həlli istiqamətində müzakirələrdə Çinin mövqeyi.** Şimali və Cənubi Koreyanın birləşməsinə münasibətdə Çinin mövqeyi dərin siyasi köklərə malikdir. Koreya birləşərsə, onun Amerika və Yaponiya nüfuz dairəsinə çevrilməsinin Pekinin siyasi məqsədləri üçün güclü zərbə ola bilməsi fikri ekspertlər tərəfindən daha çox səsləndirilir. Çinlilərin fikrincə, Koreyanın Yaponiyaya qarşı tarixi düşmənçiliyi bu ölkəni Çin təsiri sahəsinə yönəldə bilər. Ancaq bu gün bölünmüş Koreya da Çini təmin edir [2, 275]. Ona görə də Pekin Şimali Koreyadakı rejimin saxlanması lehinə çıxış edir. ÇXR-in Şimali Koreyadakı rejimə tərəfdar olmasının digər bir səbəbi də hər iki ölkədə hakim ictimai-siyasi quruluşun eyniliyidir. Müvafiq olaraq, ABŞ-ın bu rejimə düşmən münasibətinin əsasında da onun nüvə proqramı ilə yanaşı, kommunist rejimi olması durur. Pxenyanın yeganə rəsmi müttəfiqi olan Çin 1997-ci ildən yarımadada gərginliyin azaldılması ilə bağlı dördtərəfli görüşlərdə iştirak edir. Çin

1993-cü ilin mart ayında Pxenyanın nüvə silahını yaymamaq haqqında müqavilədən çıxacağı ilə əlaqədar hədələr səsləndirdiyi vaxtdan bəri Şimali Koreya tərəfindən yaradılan bütün böhranların tənzimlənməsində mühüm rol oynamışdır. Çin həmişə öz müttəfiqinə qarşı sanksiyaların tətbiqi əleyhinə çıxış etsə də, beynəlxalq ictimaiyyətin müraciətini bu ölkə rəhbərinə çatdırmaqda və onu əmin edə bilməkdə mühüm tərbiyəvi rol oynamışdır [3, 55]. Hazırda yalnız Çinin Şimali Koreyaya təsir göstərə bilməsi təəccüblü deyil. Çünki təcrid vəziyyətində olunmuş bu dövlətin yeganə ümidi Çin Xalq Respublikasıdır.

Çin rəhbərliyi yarımadada, xüsusilə də, Şimali Koreyada öz təsirini saxlamağın qeydinə qalır. Əgər gərginliyin azaldılması prosesi davam edərdisə, artıq 2000-ci il iyunun 12-si və 14-də Şimali və Cənubi Koreya prezidentlərinin görüşündən sonra qismən iqtisadi sanksiyaları qaldıran ABŞ yarımadada hakim mövqe tuta bilərdi [3, 55]. Yaponiyada Milli Müdafiə Tədqiqatlari İnstitutunun dərc etdiyi icmalda qeyd olunurdu ki, «Çin Koreya yarımadasının nüvəsizləşdirilməsini həyata keçirmək üçün çalışır. Bu baxımdan onun maraqları ABŞ və Yaponiya ilə üst-üstə düşür. Ancaq Şimali Koreyanın bufer zona kimi oynadığı rolu qəbul edən Çin, status-kvoda heç bir dəyişiklik istəmir. Buna görə də Çin bu ölkə üzərində tam təsirini işə salır. Şimali Koreyaya öz ərzaq və enerji yardımı sayəsində bu ölkə üzərində de fakto hakimiyyətini saxlayır. Ancaq hələlik bu vasitədən istifadə etməyə tələsmir» [11, 102-103]. Qərbli mütəxəssislərin çoxu hesab edir ki, əslində Çin hər iki Koreyanı birləşməyə doğru yönəltmir. Pekin onu zəif dövlətlərin əhatə etməsinə üstünlük verir. Bu baxımdan, onlar Çinin bir zamanlar Vyetnamın bütövlükdə kommunist olmasına baxmayaraq, birləşməsinə mənfi münasibətini qeyd edirlər. Hesab olunur ki, Çin birləşmiş Koreyanın kommunist dövləti olmayacağını və Cənubi Koreyanın iqtisadi gücünə Şimali Koreyanın nüvə silahının da əlavə olunacağını bilir [3, 55]. Bu cür siyasət hegemonluğa meylli bütün dövlətlər üçün xarakterikdir. Çini bu baxımdan təqsirləndirən ABŞ-ın özünün də xarici siyasət xətti də eyni əsas üzərində qurulmuşdur.

Şimali Koreya problemi ən pis halda (KXDR rejiminin fəaliyyətinə son qoyulması, qaçqınlar axını və ya hərbi əməliyyatlar) Şimal-Şərqi Çində sosial vəziyyəti gərginləşdirə və sosial etiraz əhval-ruhiyyəsinə, bu isə böhranın «hərəkətvericisi»nə çevrilə bilər. Ancaq Pekin hələlik həm Pxenyanla ikitərəfli münasibətlər çərçivəsində iqtisadi yardım əvəzində «gərginliyi azaltmaq» sxemi, həm də Şimali Koreya məsələsinə nəzarət etmək üçün altıtərəfli danışıqlar kimi vasitəyə malikdir [7, 60]. Hərçənd, son hadisələr məsələnin danışıqlar yolu ilə həlli cəhdlərinin nəticə vermədiyini göstərdi. Hər halda sülh və sabitliyin təmin olunmasında maraqlı olan böyük dövlətlər problemin həlli yollarını tapmağa çalışacaqlar. Ancaq aşağıda qeyd olunan səbəblər regionda sülhün təmin olunacağı fikirlərini sual altında qoyur: ABŞ iki Koreya arasında münasibətlər qurulandan bəri Şimalın təcavüzkarlığının zəifləməsindən razı qalsa da, onu Şimalla sülhə nail olmaq üçün Seulun gedə biləcəyi, başlıca olaraq, Cənubi Koreyadakı Amerika hərbi qüvvələrinin saxlanması məsələsində

güzəştlər narahat edir [3, 56].

Hələlik həm ABŞ, həm də ÇXR koreyalıların əməkdaşlığının davam etdirilməsinə tərəfdardırlar. Çünki yarımadada hərbi toqquşma ABŞ və Çinin qarışdığı müharibəyə çevrilə bilər. Bu isə hazırda nə Birləşmiş Ştatların, nə də ÇXR-in maraqlarına uyğun deyil.

**Koreya yarımadasında nüvə təhlükəsinin qarşısını almaq istiqamətində müzakirələr və nəticəsi.** 2002-ci ilin fevral ayının 21-22-də Şərqi Asiya səfərinə çıxan Corc Buş Pekində oldu. İki ölkə rəhbərləri arasında danışıqlar zamanı tərəflər Koreya Xalq Demokratik Respublikası məsələsində «ümumi təmas nöqtəsi» tapmağa çalışdılar [1].

Qeyd edək ki, Corc Buş 2002-ci ilin yanvar ayında Konqresdə çıxışı zamanı Şimali Koreyanı İran və İraqla birlikdə «şər yuvası» adlandırmışdı. ABŞ-ın o zamankı müdafiə naziri Donald Ramsfeld Şimali Koreyanı nəzərdə tutaraq diqqətə çatdırmışdı ki, ABŞ «iki cəbhədə döyüşüb qalib gəlməyə hazırdır». Bu bəyanatlardan sonra Şimali Koreya nüvə proqramının həyata keçirilməsini sürətləndirdi, 2006-cı ildə isə ilk nüvə silahı sınaqları keçirdi [12]. C.Buşun bu bəyanatı danışıqların davam etdirilməsinə mane oldu.

Şimali Koreya məsələsinin həllinə öncə iki ölkə, yəni Şimali və Cənubi Koreya arasında danışıqlarla cəhd göstərilirdi. Sonra isə danışıqlara qoşulanların sırası artmağa başladı.

2003-cü ildə Koreya Xalq Demokratik Respublikası ABŞ, Yaponiya, Çin və Cənubi Koreya ilə danışıqlara Rusiyanın iştirak etməsi şərti ilə razılıq verdi. Bundan əvvəl Pxenyan ABŞ təmsilçiləri ilə ikitərəfli danışıqlar da tələb etmişdi. Lakin Vaşinqton yalnız Yaponiya, Çin və Cənubi Koreyanın iştirakı ilə beştərəfli danışıqların keçirilməsi üçün təkid edirdi. Bu formatda danışıqlar Birləşmiş Ştatlara Çini öz tərəfinə çəkib KXDR-i öz etibarlı dayağından məhrum etmək imkanı verəcəkdi. Pxenyan bu təklifi rədd etdiyinə görə danışıqlar baş tutmadı. Yalnız ABŞ Rusiyanın da müzakirələrdə iştirakına razılıq verdikdən sonra altıtərəfli danışıqlar başlandı. Kim İr Çen bu yolla Rusiya –Amerika ziddiyyətlərindən istifadə etməyə çalışırdı [5].

2003-cü ilin avqustunda Şimali Koreya problemi üzrə danışıqlar altıtərəfli formatda açıldı. Beləliklə, bu görüşdə tarixdə ilk dəfə Cənubi və Şimali Koreya ilə bərabər, ABŞ, Rusiya, Çin və Yaponiya da iştirak edirdilər [5]. Çin danışıqlarda aktiv, Rusiya isə passiv vasitəçi rolu oynayırdı.

Danışıqlarda əsas məsələ təkcə mövcud böhranı yoluna qoymaq deyil, həm də onu daha geniş planda – Şimali Koreya rejiminin «mülayim şəkildə əl-qolunun bağlanması»nı təmin etmək və Koreyada sülhün yaranması üçün yeni siyasi-hüquqi əsaslar hazırlamaqla həll etməkdən ibarət idi [5]. Müzakirələrdə KXDR-in Rusiyanın iştirakına çalışması onun müttəfiqi Çinə də sonadək etibar etmədiyini göstərirdi. Görünür, Pxenyan Əfqanıstanda Taliban rejimi ilə münasibətlərdə olduğu kimi ÇXR-in öz siyasi maraqları əvəzində onu da sonadək müdafiə etməyərək, ABŞ-la özünə sərfəli olan razılaşmaya gedəcəyindən ehtiyat edirdi.

Lakin altı ölkənin yüksək vəzifəli diplomatlarının iştirakı ilə keçirilən danışıqlar bir il sonra dayandırıldı [4]. Beləliklə, Çinin himayəsi altında keçirilən altıtərəfli danışıqlar Kim Çen İri təhlükəsizliyə təminat verməyə və köhnəlmiş müəssisələrə malik Şimali Koreya iqtisadiyyatının yüksəlişinə kömək əvəzində nüvə silahı yaratmaq proqramından imtina etməyə əmin edə bilmədi. Ümumiyyətlə, Şimali Koreya ilə danışıqlar hər dəfə müəyyən bir razılığa gəlinməməsi üzündən nəticəsiz qalır.

Ancaq ABŞ Şimali Koreya hökumətinin Yonbendə plutonium emalı üzrə qurğunun sökülməsinə başlamağa və oraya beynəlxalq müfəttişlərin buraxılmasına razılıq verməsindən sonra 2008-ci ilin oktyabr ayının 11-də bu ölkəni terrorçu ölkələr siyahısından çıxardı. C.Buş təkid edirdi ki, Şimali Koreyanın terrorçu ölkələr siyahısından çıxarılması üçün o, altıtərəfli danışıqların iştirakçıları tərəfindən müəyyən edilmiş yoxlamalar haqqında tələbləri tam yerinə yetirməlidir. Şimali Koreyanın bununla razılaşmasından sonra C.Buş oktyabrın 10-da Vaşinqtonda bir neçə günlük danışıqlardan və müzakirələrdəki həmkarları ilə məsləhətləşmələrdən sonra bu qərarı təsdiq etdi. Növbəti gün ABŞ dövlət katibi K.Rays KXDR-in terrorçu ölkələr siyahısından çıxarılması haqqında sərəncam imzaladı [6, 198]. Buna baxmayaraq, ABŞ Şimali Koreyaya qarşı çoxsaylı sanksiyalar tətbiqindən imtina etmədi. KXDR-də isə hakimiyyət dəyişikliyi də Şimali Koreyanın mövqeyinin dəyişməsinə səbəb olmadı, əksinə Pxenyan daha sərt mövqe nümayiş etdirməyə başladı və nüvə sınaqlarını aktivləşdirdi.

**Nəticə.** Şimali Koreyanı danışıqlar masası arxasına əyləşdirmək mümkün olsa da, Birləşmiş Ştatların barəsində danışdığımız vədlərini yerinə yetirməməsi danışıqların nəticəsiz olmasına şərait yaratdı. Bütün müharibə ocaqları və konfliktlərin öz həllini tapması, böyük dövlətlərin mənafeyinə uyğun gəlmədikcə, müşkül məsələdir. Deməli, Koreya probleminin mövcudluğu ABŞ-ın və Çinin maraqlarında müəyyən yer tutur.

## ƏDƏBİYYAT


1. Буш потребует от Пекина и Сеула покончить с распространением оружия массового поражения- http://inosmi.ru/untitled/20020218/143116.html, (21.10.2015)
2. Василенко И.А. Геополитика современного мира. М.: Гардарики, 2006, 317с, 275
3. Голдфьем Ж. Можно ли надеяться на ослабление напряженности в Азии? // «КОМПАС», 2000, №42, с.53-57, 55
4. Ким Чен Ир выдвинул 4 условия для новых6-сторонних переговоров по ядерной проблеме // http://www.newsru.com , (1.03.2015)
5. Корейский узел затягивается все туже // Эксперт (електронный журнал), №29, 2003 // http://expert.ru, (11.09.2015)
6. Корею сняли с «оси зла» // http://www.gazeta.ru, (13.02.2015), 198
7. Михеев В.В. Китай: угрозы, риски, вызовы развитию // МЭ и МО, 2005, №5, с.54-60
8. Солянская К. Северная Корея победила США // http://www.gazeta.ru/2003/01/13/ssapomogutkn.shtml, (13.09.2015)
9. Торкунов А.В. Современные международные отношения и мировая политика. М.: Просвещение, 2005, 990 с., 624

10. Ширяев Б.А. Внешняя политика США: принципы, механизмы, методы. С.Петербург: С.Петербургский Университет, 2007, 442 с.
11. East Asian Strategic Review. 2005. Tne National Institute for Defense Studies Japan. The Japan Times. First Edition: June, 2005, 205 pp. 102-103
12. Engelhardt T. The Bush’s Doctrine in Ruins // Asia Times, (Hongkong), 2008, October 28- http://www.atimes.com, (24.10.2015)

## ПЕРЕГОВОРЫ ПО ЯДЕРНОЙ ПРОГРАММЕ СЕВЕРНОЙ КОРЕИ. ПОЗИЦИЯ КИТАЯ

**У.Дж.АЛИЕВА**

**РЕЗЮМЕ**

В статье исследованы напряжение вокруг ядерной программы Северной Кореи, причины и виновники этой проблемы, проанализированы результаты усилий по устранению напряженности на Корейском полуострове. Автор изучал отношения между Китаем и Северной Кореей, позицию китайского правительства в отношении проблем на Корейском полуострове и ее интересы. В статье приведены интересные факты о Северо-корейской проблеме и результатах переговоров вокруг ядерной программы Северной Кореи.

**Ключевые слова:** Северная Корея, Корейский полуостров, КНДР, Китай, ядерная программа

## THE NEGOTIATIONS ON THE NUCLEAR PROGRAM OF NORTH KOREA. CHINA’S POSITION

**U.J.ALIYEVA**

**SUMMARY**

The article studies the tension around the nuclear program of North Korea, the causes and perpetrators of this problem, and analyzes the results of efforts to eliminate the tensions on the Korean peninsula. The author has studied the relationship between China and North Korea, China's position in the problems on the Korean Peninsula and its interests. The article presents some interesting facts about the North Korean problem and the outcome of the negotiations over the nuclear program of North Korea.

**Key words:** North Korea, Korean Peninsula, China, DPRC, nuclear program